# AZƏRBAYCAN RESPUBLİKASININ 2004-CÜ İL DÖVLƏT BÜDCƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Maddə 1.

Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsinin gəlirləri 7 518 400,0 milyon manat, xərcləri 7 833 400,0 milyon manat məbləğində təsdiq edilsin.

## Maddə 2.

Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulur:

*(milyon manat)*

| **Gəlirlərin mənbələri** | **Dövlət büdcəsinin gəlirləri** |
|---|---|
| Fiziki şəxslərin gəlir vergisi | 840000,0 |
| Hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa) | 1117000,0 |
| Əlavə dəyər vergisi | 2324000,0 |
| o cümlədən: | |
| Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara əlavə dəyər vergisi | 844000,0 |
| Aksizlər | 350000,0 |
| o cümlədən: | |
| Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara aksizlər | 50000,0 |
| Hüquqi şəxslərin əmlak vergisi | 160000,0 |

| | |
|---|---|
| Hüquqi şəxslərin torpaq vergisi | 70000,0 |
| Tranzit yol vergisi | 6000,0 |
| Mədən vergisi (yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi istisna olmaqla) | 489000,0 |
| Sadələşdirilmiş vergi | 80000 |
| Gömrük rüsumları | 300000,0 |
| Dövlət rüsumu | 120000,0 |
| Birdəfəlik rüsum | 7000,0 |
| Vergi olmayan sair gəlirlər | 237000,0 |
| Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 12000,0 |
| Avropa Birliyinin Azərbaycan Respublikasına verdiyi qrant | 50000,0 |
| Xarici dövlətlərin hökumətlərinə verilmiş kreditlər üzrə daxilolmalar | 17864,6 |
| Səhmlərində dövlətin payı olan banklardan alınan dividendlər | 10072,0 |
| Qeyri-maliyyə dövlət müəssisələrindən alınan dividendlər | 45000,0 |
| Milli Bankın mənfəətindən daxilolmalar | 30000,0 |
| Dövlət Neft Fondundan daxilolmalar | 650000,0 |
| Büdcədən verilmiş kreditlər üzrə daxilolmalar | 1833,6 |
| Təkrar borc sazişləri üzrə daxilolmalar | 44729,8 |
| Aksiz markalarının satışından daxilolmalar | 5500,0 |
| Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları | 350000 |
| ***2004-cü ilin yanvar ayının 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabında olan sərbəst qalığı*** | ***201400,0*** |

## Maddə 3.

Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsinə vergi daxilolmaları Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş vergi dərəcələrinə uyğun olaraq hesablanır.

Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili müəssisə topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 25 faiz həcmində ödəniş müəyyən edilir.

## Maddə 4.

Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələrdən göstərilən normativlər üzrə ayırmalar hesabına formalaşır:

| | |
|---|---|
| Bakı şəhəri üzrə gəlirlər | **88,67%** |
| Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara əlavə dəyər vergisi (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa) | 100% |
| Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara aksizlər (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa) | 100% |
| Gömrük rüsumları (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa) | 100% |
| Tranzit yol vergisi (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa) | 100% |
| Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 100% |
| Xaricdən alınan cari və əsaslı ödənişlər | 100% |
| Xarici dövlətlərin hökumətlərinə verilmiş kreditlər üzrə daxilolmalar | 100% |
| Səhmlərində dövlətin payı olan banklardan alınan dividendlər | 100% |
| Qeyri-maliyyə dövlət müəssisələrindən alınan dividendlər | 100% |
| Milli Bankın mənfəətindən daxilolmalar | 100% |
| Dövlət Neft Fondundan daxilolmalar | 100% |
| Aksiz markalarının satışından daxilolmalar | 100% |
| Büdcədən verilmiş kreditlər üzrə daxilolmalar | 100% |
| Təkrar borc sazişləri üzrə daxilolmalar | 100% |
| Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları | 100% |
| ***2004-cü ilin yanvar ayının 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabında olan sərbəst qalığı*** | ***100%*** |

## Maddə 5.

Naxçıvan Muxtar Respublikasının, digər şəhər və rayonların yerli gəlirlərinə aşağıdakılar verilir:

- mərkəzləşdirilmiş gəlirlərə aid edilənlərdən və yerli xərclərdən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmalarından başqa Bakı şəhəri üzrə gəlirlərin *11,33* faizi;
- Naxçıvan Muxtar Respublikası, digər şəhər və rayonlar üzrə gəlirlərin 100 faizi.

## Maddə 6.

Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsinin xərcləri funksional təsnifatının bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Göstəricilər | Məbləğ (min manat) |
|---|---|
| 1. Ümumi dövlət xidmətləri xərcləri | 665849818 |
| o cümlədən: | |
| —qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılması xərcləri | 476245833 |
| —beynəlxalq təşkilatlara üzvlük haqqı xərcləri | 48139948 |
| —elm xərcləri | 108664555 |
| —başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri | 32799482 |
| 2. Müdafiə xərcləri | 903188722 |
| 3. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanılması xərcləri | 810847941 |
| o cümlədən: | |
| —Azərbaycan Respublikası məhkəmə hakimiyyəti orqanlarının saxlanılması xərcləri | 41490339 |
| —Azərbaycan Respublikası prokurorluq orqanlarının saxlanılması xərcləri | 65500441 |
| —Azərbaycan Respublikası hüquq-mühafizə, təhlükəsizlik orqanlarının saxlanılması xərcləri | 696313920 |
| —məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizliyin təmin edilməsi üzrə digər kateqoriyalara aid edilməyən fəaliyyətlə bağlı xərclər | 7543241 |
| 4. Təhsil xərcləri | 1541249562 |
| 5. Səhiyyə xərcləri | 396241118 |
| 6. Sosial müdafiə və sosial təminat xərcləri | 1192022069 |
| o cümlədən: | |
| —sosial müdafiə xərcləri | 848000000 |
| —sosial təminat xərcləri | 344022069 |
| 7. Mədəniyyət, incəsənət, kütləvi informasiya, bədən tərbiyəsi və din sahəsində fəaliyyətin xərcləri | 200555214 |
| o cümlədən: | |
| —mədəniyyət və incəsənət sahəsində fəaliyyətin xərcləri | 179630521 |
| —bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinin xərcləri | 20924693 |

| | |
|---|---|
| 8. Mənzil-kommunal təsərrüfatı xərcləri | 150043399 |
| 9. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri | 317057144 |
| o cümlədən: | |
| —kənd təsərrüfatı xərcləri | 284378734 |
| —meşə təsərrüfatı xərcləri | 15196270 |
| —balıqçılıq sahəsinin xərcləri | 1389295 |
| —digər kateqoriyalara aid edilməyən fəaliyyət və xidmətlərin xərcləri | 16092845 |
| 10. Sənaye və tikinti xərcləri | 503617724 |
| o cümlədən: | |
| —sənaye xərcləri | 23017774 |
| —tikinti xərcləri | 480599950 |
| ondan: | |
| —dövlət investisiya xərcləri | 480000000 |
| 11. Nəqliyyat və rabitə xərcləri | 329757847 |
| 12. İqtisadi fəaliyyətlə bağlı digər xərclər | 143303754 |
| o cümlədən: | |
| —təchizat, ticarət, ictimai iaşə üzrə xərclər | 210354 |
| —turizm xərcləri | 1530000 |
| —çoxsahəli inkişaf layihələri üzrə xərclər | 141335300 |
| —ümumi təsərrüfat və kommersiya fəaliyyəti üzrə xərclər | 228100 |
| 13. Əsas bölmələrə aid edilməyən xərclər | 539679632 |
| o cümlədən: | |
| —əsas bölmələrə aid edilməyən sair xərclər | 383547449 |
| ondan: | |
| —dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 350000000 |
| —ehtiyat fondlarının xərcləri | 146132183 |
| —digər səviyyəli büdcələrə verilən vəsaitlər (yerli büdcələrə verilən dotasiya) | 10000000 |
| 14. Dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər | 139986056 |

## Maddə 7.

Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

## Maddə 8.

Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri 54900,0 milyon manat, xərcləri *256253,7* milyon manat olmaqla, gəlir və xərclərini tənzimləmək üçün dövlət büdcəsindən ayrılan dotasiya *201353,7* milyon manat məbləğində təsdiq edilsin.

Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar gəlirləri 4428,4 milyon manat, xərcləri 4428,4 milyon manat müəyyən edilsin.

## Maddə 9.

Azərbaycan Respublikasının digər şəhər və rayonlarının yerli gəlirləri *714142,8* milyon manat, yerli xərcləri *1832903,0* milyon manat olmaqla, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait *1118760,2* milyon manat təsdiq edilsin.

Həmin şəhər və rayonların yerli xərclərindən maliyyələşən təşkilatların büdcədənkənar gəlirləri 22488,5 milyon manat, xərcləri 22488,5 milyon manat təsdiq edilsin.

*(min manat)*

| **№** | **Şəhər və rayonların adı** | **Gəlirlər** | **Xərclər** | **Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait** |
|---|---|---|---|---|
| | *Şəhərlər:* | | | |
| *1.* | *Bakı* | *529170823* | *529170823* | |
| *2.* | *Əli Bayramlı* | *3735000* | *15691260* | *11956260* |
| *3.* | *Yevlax* | *3242000* | *22840713* | *19598713* |
| *4.* | *Gəncə* | *23027000* | *69910891* | *46883891* |
| *5.* | *Lənkəran* | *6200000* | *33900494* | *27700494* |
| *6.* | *Mingəçevir* | *6255000* | *28310525* | *22055525* |
| *7.* | *Naftalan* | *485000* | *3479660* | *2994660* |
| *8.* | *Sumqayıt* | *17934000* | *71954022* | *54020022* |
| *9.* | *Xankəndi* | | | |
| *10.* | *Şəki* | *5156000* | *36925233* | *31769233* |
| | *Rayonlar:* | | | |
| *11.* | *Abşeron* | *6909000* | *18827065* | *11918065* |

| | | | | |
|---|---|---|---|---|
| *12.* | *Ağdam* | *701000* | *38662245* | *37961245* |
| *13.* | *Ağdaş* | *2142000* | *19594082* | *17452082* |
| *14.* | *Ağstafa* | *1976000* | *15549611* | *13573611* |
| *15.* | *Ağsu* | *1431000* | *13440046* | *12009046* |
| *16.* | *Ağcabədi* | *3032000* | *23464159* | *20432159* |
| *17.* | *Astara* | *2458000* | *17329179* | *14871179* |
| *18.* | *Balakən* | *2084000* | *15967050* | *13883050* |
| *19.* | *Beyləqan* | *2361000* | *17177252* | *14816252* |
| *20.* | *Bərdə* | *4382000* | *28009017* | *23627017* |
| *21.* | *Biləsuvar* | *1915000* | *15352395* | *13437395* |
| *22.* | *Qazax* | *2351000* | *19494388* | *17143388* |
| *23.* | *Qax* | *1983000* | *14510797* | *12527797* |
| *24.* | *Qəbələ* | *2403000* | *17907631* | *15504631* |
| *25.* | *Qobustan* | *681000* | *8611144* | *7930144* |
| *26.* | *Quba* | *4049000* | *27442286* | *23393286* |
| *27.* | *Qubadlı* | *285000* | *11461004* | *11176004* |
| *28.* | *Qusar* | *2181000* | *18965997* | *16784997* |
| *29.* | *Daşkəsən* | *894000* | *12289780* | *11395780* |
| *30.* | *Dəvəçi* | *1678000* | *10554878* | *8876878* |
| *31.* | *Zaqatala* | *4212000* | *23719536* | *19507536* |
| *32.* | *Zəngilan* | *181000* | *9424170* | *9243170* |
| *33.* | *Zərdab* | *1356000* | *11402545* | *10046545* |
| *34.* | *İmişli* | *2755000* | *20545389* | *17790389* |
| *35.* | *İsmayıllı* | *2131000* | *16878552* | *14747552* |
| *36.* | *Yardımlı* | *706000* | *13468721* | *12762721* |
| *37.* | *Kəlbəcər* | *182000* | *22797925* | *22615925* |
| *38.* | *Kürdəmir* | *2288000* | *17116946* | *14828946* |
| *39.* | *Gədəbəy* | *1081000* | *24685525* | *23604525* |
| *40.* | *Goranboy* | *2651000* | *22980333* | *20329333* |
| *41.* | *Göyçay* | *3021000* | *21789635* | *18768635* |
| *42.* | *Laçın* | *357000* | *24888612* | *24531612* |
| *43.* | *Lerik* | *873000* | *15438542* | *14565542* |
| *44.* | *Masallı* | *4354000* | *28406429* | *24052429* |
| *45.* | *Neftçala* | *6815000* | *15490397* | *8675397* |
| *46.* | *Oğuz* | *1096000* | *10572354* | *9476354* |
| *47.* | *Saatlı* | *2281000* | *18732265* | *16451265* |

| | | | | |
|---|---|---|---|---|
| *48.* | *Sabirabad* | *3296000* | *25984527* | *22688527* |
| *49.* | *Salyan* | *3809000* | *22226598* | *18417598* |
| *50.* | *Samux* | *918000* | *11588532* | *10670532* |
| *51.* | *Siyəzən* | *2649000* | *7660085* | *5011085* |
| *52.* | *Tərtər* | *1270000* | *14832981* | *13562981* |
| *53.* | *Tovuz* | *3251000* | *32538226* | *29287226* |
| *54.* | *Ucar* | *1977000* | *15232446* | *13255446* |
| *55.* | *Füzuli* | *1071000* | *29356018* | *28285018* |
| *56.* | *Xanlar* | *2427000* | *13660372* | *11233372* |
| *57.* | *Xaçmaz* | *4101000* | *27580613* | *23479613* |
| *58.* | *Xocavənd* | *95000* | *6303410* | *6208410* |
| *59.* | *Xocalı* | *46000* | *3680404* | *3634404* |
| *60.* | *Xızı* | *488000* | *6396995* | *5908995* |
| *61.* | *Hacıqabul* | *1662000* | *11183158* | *9521158* |
| *62.* | *Cəbrayıl* | *179000* | *15403695* | *15224695* |
| *63.* | *Cəlilabad* | *3253000* | *33599017* | *30346017* |
| *64.* | *Şamaxı* | *2227000* | *19115387* | *16888387* |
| *65.* | *Şəmkir* | *3682000* | *33770210* | *30088210* |
| *66.* | *Şuşa* | *301000* | *7658817* | *7357817* |
| | **Cəmi:** | **714142823** | **1832902994** | **1118760171** |

## Maddə 10.

Yerli büdcələrə (bələdiyyə büdcələrinə) veriləcək dotasiyanın məbləği 10000,0 milyon manat təsdiq edilsin.

## Maddə 11.

Dövlət büdcəsindən veriləcək büdcə ssudasının həcmi 30000,0 milyon manat təsdiq edilsin.

## Maddə 12.

Azərbaycan Respublikasının 2004-cü ildə dövlət daxili və xarici borclarının faizləri və əsas məbləğləri üzrə ödənişlər aşağıdakı kimi təsdiq edilsin.

*(min manat)*

| | |
|---|---|
| Daxili dövlət borcu üzrə ödənişlər | 49112,1 |
| o cümlədən: | |

| | |
|---|---|
| faizlər üzrə ödənişlər | 38536,5 |
| əsas borc üzrə ödənişlər | 10575,6 |
| Xarici dövlət borcu üzrə ödənişlər | 90874,0 |
| o cümlədən: | |
| faizlər üzrə ödənişlər | 51836,7 |
| əsas borc üzrə ödənişlər | 39037,3 |

### Maddə 13.

Nəzərdə tutulmayan xərclər və fövqəladə hallar üçün yaradılmış ehtiyat fondunun məbləği ***146132,2*** milyon manat təsdiq edilsin.

### Maddə 14.

2004-cü ildə investisiya layihələri üçün dövlət zəmanəti ilə alınan xarici kreditlərin həcmi 644829,7 milyon manat təsdiq edilsin.

### Maddə 15.

Azərbaycan Respublikasının daxili dövlət borcunun yuxarı həddi 200000,0 milyon manat, xarici dövlət borcunun yuxarı həddi 995000,0 milyon manat təsdiq edilsin.

### Maddə 16.

Əmək haqqı, əmək haqqına üstəlik, pensiya, başqa sosial müavinətlər və ödənişlər, dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər, dərman və ərzaq alınması xərc maddələri ilk növbədə, sonra isə gəlirlərin daxil olmasından asılı olaraq və kəsirin müəyyən olunmuş həddi nəzərə alınmaqla digər xərc maddələri üzrə nəzərdə tutulmuş vəsaitlər maliyyələşdirilir.

### Maddə 17.

Büdcə daxilolmalarının vəziyyətindən asılı olmayaraq əmək haqqı, əmək haqqına üstəlik, pensiya, başqa sosial müavinətlər və ödənişlər, dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər, dərman və ərzaq alınması xərc maddələri müdafiə olunmuş xərc maddələridir.

### Maddə 18.

Dövlət büdcəsi kəsirinin yuxarı həddi 315000,0 milyon manat məbləğində təsdiq edilsin.

## Maddə 19.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan Azərbaycan Respublikasının 2004-cü il icmal büdcəsinin kəsiri 1204000,0 milyon manat məbləğində müəyyən edilsin.

## Maddə 20.

Azərbaycan Respublikasının 2004-cü il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği ***11252249,1*** milyon manat müəyyən edilsin.

## Maddə 21.

Büdcə ili ərzində büdcədən maliyyələşdirilən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun orqanlarına tam məbləğdə daxil olmazsa, nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər mərkəzləşdirilmiş xərclərdən Dövlət Sosial Müdafiə Fonduna yönəldilən transfertin məbləği artırılmaqla köçürülür.

## Maddə 22.

Enerji, qaz və kimya sektorları üzrə alınan yanacaq üçün ödənilməyən məbləğə görə dövlət büdcəsi hesabına bu sektorlara veriləcək dolayı subsidiyaların limiti müvafiq olaraq 1850020,0 milyon manat, 326700,0 milyon manat və 155250,0 milyon manat müəyyən olunmaqla icmal büdcənin həm gəlir, həm də xərc hissəsinə daxil edilib ayrıca sətirlə göstərilir.

## Maddə 23.

İxrac olunan neftin satış qiyməti büdcə hesablamaları üçün nəzərdə tutulduğundan yüksək olduqda, yaranmış fərq üzrə büdcəyə daxil olmuş vəsait xəzinədarlığın hesabında ayrıca saxlanılır və həmin vəsaitdən yalnız neftin satış qiyməti büdcə hesablamaları üçün nəzərdə tutulmuş səviyyədən aşağı olduqda istifadə olunur.

## Maddə 24.

Bu Qanun 2004-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 28 noyabr 2003-cü il***
***№ 517-IIQ***